www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-16 (1799) 30 sentyabr 2024-cü il



## Vətən müharibəsinin başlanmasından 4 il ötdü

**Səhiyyə Nazirliyinin rəhbərliyi və ATU-nun rektoru Zəfər parkını ziyarət ediblər**

səh. 2

### Süleyman Dəmirəl Universitetinin rektoru ATU-nun qonağı olub

səh. 2

### Təhsil krediti ilə bağlı tələbələrlə görüş keçirilib

səh. 4

### Tələbə və rezidentlər üçün "Cərrahi platforma" təqdim olunub

səh.4



### Universitetimiz dünyada tanınmış təhsil şirkəti ilə əməkdaşlığa başlayıb

Quacquarelli Symonds şirkəti ilə imzalanmış saziş beynəlxalq səviyyədə yeni imkanlar açır

səh. 2

### Həmkarlar İttifaqı Komitəsinin fəaliyyət sahəsi çox genişdir

*Dosent Cahangir Qasımov: Əməkdaşlarımızın qanuni hüquqları hər zaman qorunub və qorunmaqdadır*

səh. 5

### Baxış və jestlər dili

*Yer kürəsində minlərlə dil olsa da, lal-karların ünsiyyət forması birdir*

səh. 7



### Böyük Elmi Şurada yaz semestrinin imtahan sessiyasının nəticələri müzakirə olunub

Rektor, professor Gəray Gəraybəyli: Universitetimizdə ikinci ali təhsil və magistr təhsili almaq istəyənlərin sayı çoxalıb

səh.3

# Vətən müharibəsinin başlanmasından 4 il ötdü

## Səhiyyə Nazirliyinin rəhbərliyi və ATU-nun rektoru Zəfər parkını ziyarət ediblər



**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamına əsasən, 27 sentyabr ölkəmizdə Anım Günü kimi qeyd edilir.**

Anım Günü ilə əlaqədar Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi, o cümlədən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Zəfər parkını ziyarət ediblər. Onlar xatirə daşının önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla anıblar.

Dövlət başçısının imzaladığı müvafiq Sərəncama əsasən, Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi yaradılır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun şücaəti, xalq və dövlətin birliyi nəticəsində əldə olunan zəfərə və qəhrəmanlıq salnaməsinə köklənərək, tariximizin ən şərəfli səhifələrindən biri yazılıb. 27 sentyabr zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsinin və uzaq keçmişdən başlayan ədalətsiz tarixi prosesi dəyişən ərazi bütövlüyümüzün bərpa edilməsi, suverenliyin tam bərqərar olunması və torpaqlarımıza əsl sahiblərinə əbədi qayıtlarımasına yol açan qürurverici gündür.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı hərbçilərimizə şəfa versin!

# Universitetimiz dünyada tanınmış təhsil şirkəti ilə əməkdaşlığa başlayıb

## Quacquarelli Symonds şirkəti ilə imzalanmış saziş beynəlxalq səviyyədə yeni imkanlar açır

**Azərbaycan Tibb Universitetində (ATU) Böyük Britaniyanın Quacquarelli Symonds (QS) şirkəti ilə əməkdaşlığa dair saziş imzalanıb. Dünyada ali təhsil xidmətləri sahəsində tanınmış bu qurumla anlaşmaları özündə əks etdirən sənəd ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən imzalanıb.**



Mərasim zamanı professor Gəray Gəraybəyli bu gün rəsmi şəkildə təməli qoyulan əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına əminliyini bildirib. O, QS ekspertləri tərəfindən ATU ilə bağlı verilən tövsiyə və məsləhətlərin universitetin beynəlxalq səviyyədə fəaliyyətinə müsbət təsir göstərəcəyini qeyd edib. Görüş zamanı rektor, həmçinin ATU-da elmi tədqiqatlar və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlər və əldə olunan nailiyyətlərdən bəhs edib. Universitetimizdə tələbələrin peşəkar və fərdi inkişafı üçün yaradılan imkanlar və şərait haqqında da qonağı məlumatlandırılıb.

QS şirkətinin Rusiya, Şərqi Avropa və Orta Asiya üzrə regional direktoru Sergey Xristolyubov öz növbəsində qurumlar arasındakı əməkdaşlığın uğurlu olacağına şübhə etmədiyini bildirib. O, QS şirkətinin fəaliyyəti, reytinqlərin tərtibatı prosesi, monitorinqlər, sorğu və qiymətləndirmə proseslərinin aparılması haqqında görüş iştirakçılarına ətraflı məlumat verib. S.Xristolyubov QS reytinqində yer alan Azərbaycan universitetlərinin beynəlxalq səviyyədə potensiallarından söz açaraq təhsil prosesi, tələbə layihələri, müasir kampus quruluşu və digər məsələlər üzrə tövsiyələrini səsləndirib.

İmzalanma mərasimindən sonra tərəflər əməkdaşlığın perspektivləri və gələcək planlar ətrafında müzakirələr aparıblar.

Qeyd edək ki, görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak edirdilər.

# Süleyman Dəmirəl Universitetinin rektoru ATU-nun qonağı olub



**Türkiyənin Süleyman Dəmirəl Universitetinin rektoru, professor Mehmet Saltan Azərbaycan Tibb Universitetinin qonağı olub. ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşdə iki universitet arasındakı əlaqələrin inkişafı, ortaq layihələrin reallaşdırılmasının əhəmiyyətinə dair fikir mübadiləsi aparılıb.**

Rektor G.Gəraybəyli Azərbaycanın qocaman və tibb təhsili verən yeganə ali təhsil ocağının fəaliyyəti, son illər aparılan islahatlar, yeni yaradılan ixtisaslar və yenilənmiş proqramlarla bağlı qonağa ətraflı məlumat verib. O, iki universitet arasında mövcud əməkdaşlıq sazişinin əhatə dairəsinin genişləndirilməsi, müştərək elmi tədqiqatların sayının artırılması, tələbə mübadilələrinin gücləndirilməsi və digər bu kimi təşəbbüslərin tərəfdarı olduğunu bildirib.

Qonaq rektor, professor M.Saltan 1992-ci ildə yaradılmış Süleyman Dəmirəl Universitetinin tələbə sayı, elmi tədqiqatlar, həm də sosial layihələrə görə ölkə universitetləri arasında bəlli yerə sahib olduğunu qeyd edib. Bildirib ki, universitetin tibb və stomatologiya fakültələri yüksək bilik səviyyəsinə malik, elm dünyasına töhfə verən səriştəli həkim və akademiklər yetişdirir. Bundan əlavə, SDU-nun tərkibində olan Universitet Xəstəxanası və Stomatologiya Xəstəxanası qabaqcıl cihazlarla təchiz olunmuş klinikaları və laboratoriyaları ilə geniş bir bölgədə səhiyyə xidmətləri göstərir.

Professor M.Saltan da ATU ilə münasibətlərin dərinləşməsi üçün təkliflərin irəli sürülməsinin önəmini vurğulayıb.

# Bu gün elmi tədqiqat aparan tələbə sabahın yaxşı mütəxəssisi deməkdir

## ATU-da tələbələrin öz nəzəri biliklərini elmi cəhətdən əsaslandırması üçün bütün imkanlar mövcuddur

**ATU-nun Tələbə Elmi Cəmiyyəti "Tələbə elmi-tədqiqat işi necə aparılmalıdır?" mövzusunda sayca II seminarını keçirib. Bu dəfəki seminarda əlavə olaraq düzgün startap ideyasının seçilməsi mövzusuna da yer verilib.**

TEC-in təşkilati dəstəyi ilə baş tutan seminarı ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov açaraq, son illərdə tələbələrin elmi işlərə marağının yüksəldiyini, müəllimlərin isə tələbə tədqiqatlarına daha cidd yanaşdığını deyib. Onun sözlərinə görə, tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunması universitet həyatının əsas məsələlərindəndir. Çünki tələbə öyrəndiklərini elmi cəhətdən əsaslandırmağı bacarmırsa, ondan gələcəkdə yüksək səviyyəli həkim ola bilməz: "Hər bir tələbənin ilk kurslardan başlayaraq elmi-tədqiqat işlərinə fəal surətdə qoşulması onun gələcəkdə bacarıqlı bir mütəxəssis olmasından xəbər verir".

Ötən tədris ilində Özbəkistanın Səmərqənd şəhərində baş tutmuş beynəlxalq olimpiadada bir qrup tələbəmizin qalibiyyət əldə etdiyini xatırladan prorektor bildirib ki, tələbələrimiz bu günlərdə qardaş Türkiyənin İstanbul şəhərindəki Yeditepe Universitetində keçirilən Türk Dövlətlərinin I Tibb Konqresində də çox məharətlə çıxış ediblər: "Universitetin Elmi Araşdırmalar Mərkəzində 30-40 ildir ki, çox böyük elmi araşdırmalar aparılır. Həmin mərkəzdə tələbələrimiz də bir sıra maraqlı elmi-tədqiqat işləri həyata keçirirlər".

Cəmiyyətin hazırkı durumu və gələcək fəaliyyət proqramı haqqında məlumat verən TEC-in elmi rəhbəri, Startap və elmi koordinasiya şöbəsinin müdiri, tibb elmləri doktoru Muşviq Həsənov bildirib ki, təşkilatın sıraları ildən-ilə genişlənir, qaydaları isə günün tələblərinə uyğun olaraq yenilənir: "Əgər tarixə nəzər salsaq görərik ki, tanınmış, məşhur alimlərin demək olar ki, hamısı vaxtilə TEC-in fəal üzvləri olublar və onların sonralar əldə etdikləri yüksək nailiyyətlərin ilk addımları məhz tələbəlik illərindən atılıb".

Tələbələrin elmi araşdırmalar aparması üçün yaradılmış şəraitə görə universitetin rektoru, professor Gəray Gəraybəyliyə təşəkkür edən M.Həsənov, müştərək elmi konfransların keçirilməsinə start verildiyini, bu günkü tədbirə Naxçıvan Universitetindən də bir qrup tələbənin qatıldığını diqqətə çatdırıb: "TEC-in fəaliyyət proqramına daxil olan məsələlərdən biri də müxtəlif universitetlərin tibb mütəxəssisləri ilə təcrübələrin bölüşdürülməsi və onlar arasında koordinasiyanın qurulmasıdır. Bu da tibbin aktual sahələrinə dair elmi araşdırmaların aparılması və tibb təhsilinə inteqrasiyası baxımından böyük əhəmiyyətə malikdir".



TEC-in sədri Həmid Səfərli başda universitetin rektoru olmaqla, TEC-ə dəstək göstərən bütün dekanlıq nümayəndələrinə, eləcə də tədbir iştirakçılarına təşəkkürünü bildirib, seminarın keçirilməsində əsas məqsədin tələbələrin aşağı kurslardan başlayaraq akademik fəaliyyətə cəlb edilməsi olduğunu deyib. Nəzərə çatdırıb ki, 2024-2025-ci tədris ilində "Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı"nın Azərbaycan Tibb Universitetində keçirilməsi üçün hazırlıqlara başlanılıb.



Fakültə dekanları Fərəh Mədətli, Elmira Əliyeva və Hərbi tibb fakültəsi TEC-in elmi rəhbəri, tibb xidməti polkovniki Saleh Əhmədov da tədqiqat işi aparan tələbələr üçün universitetdə lazımi şərait yaradıldığını qeyd ediblər. Çıxışlarda vurğulanıb ki, Tələbə Elmi Cəmiyyətinin əsas vəzifələrindən biri xüsusi bacarığa, istedada malik olan tələbələri tədqiqat işlərinə cəlb edərək üzə çıxarmaqdır. Onlar bildiriblər ki, yaxşı həkim olmaq üçün nəzəri biliklə yanaşı, araşdırma aparmaq, proqnozlaşdırmaq və statistik təhlil etmək bacarıqlarına da yiyələnmək lazımdır.

Toplantının ikinci hissəsində Rafiq Alverdiyev "Düzgün startap ideyasının seçilməsi" mövzusunda çıxış edərək, onun əhəmiyyətinin nədən ibarət olması, həmçinin necə qurulması və həyata keçirilməsi yolları haqda ətraflı məlumat verib.

Bundan başqa, II Müalicə-profilaktika fakültəsi TEC-in sədri Fidan Seyfullayeva "Elmi işin hazırlanma mərhələləri", Əczaçılıq fakültəsi TEC sədri Nihad Hüseynli "Elmi işlərdə effektiv təqdimatın aparılma qaydaları", MPF-2 fakültəsinin V kurs tələbəsi, Tələbə Elmi Cəmiyyətinin beynəlxalq əlaqələr üzrə rəhbəri Səbinə Həsənzadə "Elmi məqalələrin beynəlxalq konfranslara və jurnallara göndərilməsi prosesi" mövzularında çıxış edərək, universitetimizin yeni tələbələri və elmi-tədqiqat yolunda addım atan gənclərlə öz bilik və təcrübələrini bölüşüblər.

Seminarın sonunda maraqlı müzakirələr aparılıb və tədbir sualların cavablandırılması ilə başa çatıb.

# Böyük Elmi Şurada yaz semestrinin imtahan sessiyasının nəticələri müzakirə olunub

## Rektor, professor Gəray Gəraybəyli: Universitetimizdə ikinci ali təhsil və magistr təhsili almaq istəyənlərin sayı çoxalıb

**Sentyabrın 27-də ATU-nun Böyük Elmi Şurasının 2024/2025-ci tədris ilində ilk yığıncağı keçirilib. İclası universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq şura üzvlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib.**

Gündəlikdə duran məsələlərin müzakirəsindən öncə II Qarabağ müharibəsindən 4 il ötdüyünü, 27 sentyabrın ölkəmizdə Anım günü kimi qeyd edildiyini xatırladan rektor, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun şanlı qələbəsindən danışıb. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə və antiterror əməliyyatı zamanı həyatlarını itirən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Bundan sonra Tədris və müalicə işləri üzrə prorektor, əməkdar elm xadimi, professor Sabir Əliyevi 80 illik yubileyi münasibətilə təbrik edən rektor, müxtəlif vəzifələrə yeni təyinatlar haqqında da məlumat verib və gündəlikdə duran məsələləri diqqətə çatdırıb.

Əvvəlcə universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin "Azərbaycan Tibb Universitetində 2023/2024-cü tədris ilinin yekunları və 2024/2025-ci tədris ilində universitet kollektivi qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi dinlənilib.

Təhsili hər bir cəmiyyətin inkişafını sürətləndirən ən mühüm sahələrdən biri kimi səciyyələndirən prorektor bildirib ki, növbəti 7 il ərzində nəzərdə tutduğumuz əsas strateji plan universitetimizi ölkəmizdə təkcə tibb təhsili deyil, həm də elmi-tədqiqatlar və səhiyyə xidmətləri sahəsində lider müəssisə mövqeyinə çıxarmaq məqsədi daşıyır. O, hesabat ilində tədris, tədris-metodik, elmi-tədqiqat, gənc nəslin milli zəmində tərbiyəsi, universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində xeyli işlər görüldüyünü vurğulayıb. Onun sözlərinə görə, universitet əməkdaşları tərəfindən "Əhalinin sağlamlığının qorunması" proqramına müvafiq olmaqla 3 elmi istiqamət, 9 problem üzrə 57 icra olunan mövzu yerinə yetirilib. Həmçinin universitetin əməkdaşlarının xaricdə 677, respublika dövri mətbuatında 1591 elmi işi işıq üzü görüb və müntəzəm olaraq çıxışlar ediblər. 2023-cü ildə 8 ixtiraya görə Avrasiya patenti və 2 ixtiraya görə Azərbaycan patenti alınıb.

Məruzəçi 2024/2025-ci tədris ilində də universitetin I kursuna və Hərbi tibb fakültəsinin hərbi feldşerlər məktəbinə qəbulun Dövlət İmtahan Mərkəzi tərəfindən aparıldığını, Hərbi tibb fakültəsinə qəbul zamanı Müdafiə və Ədliyyə nazirliklərinin sifarişləri ilə yanaşı, Daxili Qoşunlar və Sərhəd Qoşunlarının sifarişlərinin də nəzərə alındığını söyləyib.

Hesabatda universitetimizə bu il qəbul edilmiş tələbələrin test imtahanlarında yüksək nəticələr göstərməsi də öz əksini tapıb: "Bu il universitetimizə qəbul olunmuş tələbələr test imtahanlarında yüksək nəticələr göstəriblər və 1017 tələbənin 595 nəfəri 600-dən yuxarı bal toplayaraq universitetə daxil olub. Yeri gəlmişkən qeyd edim ki, onlar əlaçı tələbələr hesab olunurlar.

Möhtərəm prezidentimiz İlham Əliyev cənablarının Sərəncamına əsasən təltif olunmuş 102 Prezident təqaüdçüsünün 25 nəfəri bizim universiteti seçib. Artıq neçənci ildir ki, ən çox Prezident təqaüdçüləri universitetimizə daxil olsa da, I kursun ilk imtahan sessiyasından başlayaraq onların sayı kəskin surətdə azalır. Belə ki, cari tədris ili istisna olmaqla, son 5 ildə universitetə 122 nəfər Prezident təqaüdçüsü daxil olsa da, hazırda bu adı 23 tələbə daşıyır.

Universitet rəhbərliyi bir daha Elmi Şura üzvlərinin nəzərinə çatdırır ki, universitetə yüksək balla daxil olan və Prezident təqaüdçüsü adına layiq görülən tələbələr daim diqqətdə saxlanılmalı, Tələbə Elmi Cəmiyyətinin işinə cəlb edilməli, hətta lazım gələrsə, kafedralarda onlarla elmin müasir tələblərinə uyğun əlavə dərslər aparılmalıdır".

Hesabat məruzəsində yaz semestrinin imtahan sessiyasının nəticələrindən danışan prorektor, imtahan sessiyasının başlanğıcından 4 nəfərin akademik məzuniyyətdə olduğunu, yaz semestri ərzində öz ərizələrinə görə 17 tələbənin universitetdən xaric edildiyini deyib: "Beləliklə, imtahanda iştirak edən 6877 tələbədən 892 nəfər imtahan sessiyasını "əla"(12.9%, keçən il 10.1%), 3198 nəfər "əla" və "yaxşı" (46.5%, keçən il 45,8%), 2298 nəfər qarışıq qiymətlərlə (33.41%, keçən il 38.89%) başa vurub. 489 nəfər isə (7.1%, keçən il 5,1%) "qeyri-kafi" almışdır ki, bunlardan da 376 nəfərin yalnız 1, 75 nəfərin 2, 38 nəfərin isə 3 və daha artıq fəndən akademik borcu qalmışdır.

Ümumiyyətlə, kəmiyyət göstəricisi 92.88% (2022/2023-cü tədris ilində 94,8%), keyfiyyət göstəricisi isə 59.47% (2022/2023-cü tədris ilində 55.91%) olmuşdur".

Xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayının ildən-ilə artdığını deyən məruzəçi, bunu ilk növbədə tədrisin ingilis dilində aparılması ilə əlaqələndirib: "Xarici tələbələrlə iş üzrə dekanlığın yerinə yetirdiyi vacib işlərdən biri də tələbələrin Bakı şəhərində müvəqqəti yaşamaq hüququnu təmin etmək üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə sıx əlaqə saxlayaraq onların qeydiyyatını təşkil etməkdən ibarətdir.

Dekanlıq tez-tez yataqxanada yaşayan tələbələrin məişət şəraiti ilə maraqlanır və müvafiq problemlərinin yerindəcə həll olunması üçün səy göstərir. Tədris ili ərzində tələbələrin yaşayış şəraitinin yaxşılışdırılması rektorun və xarici tələbələr dekanlığının diqqət mərkəzində saxlanılır".

S.Əliyev hesabat ilinin sonunda bir neçə kafedra müdirinin və kafedraların ayrı-ayrı əməkdaşlarının tədrisin təşkili, dərs cədvəlinin optimal tərtib olunması, ayrı-ayrı fənlərə ayrılan dərs yüklərinin artırılması, fənnin semestr ərzində tədris ardıcıllığı və s. məsələlər üzrə universitet rəhbərliyinə müraciət etdiyini, həmin müraciətlərin universitetin müvafiq qurumlarında diqqətlə öyrənildiyini və imkan daxilində tətbiqinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.



Eyni zamanda Apellyasiya Komissiyasının işinin keyfiyyətinin artırılması, üzvlərin əmək fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə təkliflərini şura üzvləri ilə bölüşən prorektor, çıxışının sonunda universitet kollektivinin cari tədris ilində əvvəllər buraxılmış nöqsanları aradan qaldırmağa, tələbələrlə aparılan tədris və tədris-metodik işi günün tələblərinə uyğun qurmağa çalışacağına əminliyini ifadə edib.

Məruzə ətrafında çıxış edənlər müzakirəyə çıxarılan məsələlərlə bağlı fikirlərini bölüşüblər. ATU-nun Apellyasiya Komissiyasının sədri, professor Gülnarə Əzizova cari ilin yaz semestrində 967 müraciətə baxıldığını, daha çox apellyasiya şikayətinin IV kurs tələbələrindən gəldiyini və bəzi kafedralarda əsaslı apellyasiya şikayətlərinin müşahidə edildiyini bildirib: "Əsaslı qüsur testin tərtibində olan qüsurdur. Yəni doğru cavab yoxdursa və yaxud iki doğru cavab varsa, cümlənin mahiyyətinə təsir edən müxtəlif söz və tərcümə



səhvlərinə yol verilibsə, eyni sual bir neçə dəfə təkrarlanıbsa, bunlar əsaslı qüsurlar hesab olunur".

Apellyasiya araşdırmalarının kurslar və fakültələr üzrə nəticələrini də diqqətə çatdıran komissiya sədri, bu işə məsuliyyətlə yanaşaraq komissiyaya yaxından köməklik göstərən ekspertlərin fəaliyyətindən razı qaldığını deyib.

Çıxışı zamanı burada səslənən iradların aradan qaldırılması üçün artıq Stomatologiya fakültəsinin elmi şurasında müzakirələr aparıldığını söyləyən Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov ekspertlərin işinin ağırlığına da toxunub və onlar barəsində həvəsləndirici tədbirlərin görülməsini, həmçinin 2025-ci ilin tədris proqramı hazırlanarkən kafedranın rəyini nəzərə almağı təklif edib.

Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov 2024/2025-ci tədris ili üçün planlaşdırılmış dərs saatlarının bütün kafedralara göndərildiyini və həmin dərs saatlarının əməkdaşlar arasında bölgüsünü qısa müddətdə həm dekanlığa, həm də tədris hissəsinə təqdim etməyin vacibliyini söyləyib. Bildirib ki, kafedralarda artıq qalan dərs saatlarını aparmaq üçün kənardan mütəxəssislər dəvət etməkdənsə, baş laborantları bu prosesə cəlb etmək daha məqsədəuyğundur.

İngilis bölməsindəki qrupların universitetin hesabına təşkil olunan dil kurslarında B2 səviyyəsində sertifikat alan əməkdaşlara verilməsinin zəruriliyini vurğulayan K.Yaqubov onu da bildirib ki, COP29-un keçirildiyi tarixə təsadüf edən mühazirə materialları 3 dildə universitetin saytına yerləşdirilməlidir.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibətini açıqlayan rektor, professor Gəray Gəraybəyli ölkə rəhbərliyinin təhsilə xüsusi qayğı göstərdiyini vurğulayıb və tələbələrin böyük əksəriyyətinin dövlət hesabına təhsil almasını bu qayğının bariz nümunəsi kimi dəyərləndirib. Əsas diqqəti son dövrlərdə tibb təhsili sahəsində rəqabətin yaranmasına yönəldərək qeyd edib ki, universitetimiz bir zamanlar Azərbaycanda tibb kadrları hazırlayan yeganə ali məktəb idi. Ancaq indi İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı və Naxçıvan Dövlət Universitetində də tibb kadrları hazırlanır, yaxın gələcəkdə Qarabağ Universitetində də tibb fakültəsinin açılması nəzərdə tutulub. Bütün bunların daha güclü rəqabətin yaranmasına gətirib çıxarmaqla yanaşı, universitet kollektivinin üzərinə ciddi məsuliyyət qoyduğunu söyləyən professor G.Gəraybəyli, beynəlxalq qurumlarla əməkdaşlığın genişlənməsindən də danışıb: "Bildiyiniz kimi, beynəlxalq aləmdə qəbul edilmiş kriteriyalar var. Yəni beynəlxalq standartların, akkreditasiya sistemlərinin tələbləri konkretdir. Artıq bir neçə ildir ki, dünya akkreditasiya qurumları ilə sıx əməkdaşlıq edirik. Bu ayın əvvəlində isə Böyük Britaniyanın Quacquarelli Symonds (QS) şirkəti ilə 4 illik əməkdaşlıq müqaviləsi imzalamışıq".

Müzakirə olunan tədris məsələsinin aktuallığını, imtahanların formatının dəyişdirilməsi, optimallaşdırılması istiqamətində davamlı işlər görüldüyünü xatırladan rektor, imtahan prosesində daha bir dəyişiklik edildiyini, artıq I kursda oxuyan tələbələrin tədris proqramı ilə təmin olunacağını, onlara heç bir test sualının verilməyəcəyini vurğulayıb.

Universitetimizdə ikinci ali təhsil və magistr təhsili almaq istəyənlərin sayının çoxaldığını şura üzvlərinin diqqətinə çatdıran rektor, keyfiyyət göstəricisinin I kursda çox aşağı olması, sonuncu kursda 3 dəfəyədək artmasının səbəblərinə və narahatlıq doğuran digər problemlərə də aydınlıq gətirib.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən göndərilən əlyazmalar və ATU-da əməkdaşların patent hazırlamasının stimullaşdırılması üçün maddi dəstək göstərilməsi barədə məsələlərə də baxılıb. Eyni zamanda Akkreditasiya Komissiyasının yekun hesabatında qeyd etdiyi tövsiyələrin icrasına dair hazırlanmış ATU-nun fəaliyyət planı təsdiqlənib. Həmçinin universitetin təşkil etdiyi kurslarda B2 səviyyəsi göstərən və Tədris Departamenti tərəfindən hər semestr yenisi olmaqla təqdim olunan siyahı əsasında professor-müəllim heyətinə münasibətdə differensial əməkhaqqının tətbiq edilməsi, İctimai səhiyyə fakültəsinin Tibb bacısı/qardaşı ixtisasının Orhun mübadilə proqramında iştirak edən IV kurs tələbələri üçün təkrar dinləmə qrupları üzrə dərslərin ödənişsiz aparılması qərara alınıb.

Sonda Miriyeva Ləman Miryusif qızının təhsil ödənişinə güzəştlər edilməsinə və dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrinə razılıq verən Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# 14 əcnəbi tələbə rezidenturaya qəbul olunub



**Azərbaycan Tibb Universitetində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün rezidentura və magistratura pillələri üzrə qəbul imtahanları keçirilib. Ənənəvi olaraq iki mərhələdən ibarət imtahanın birinci hissəsində dil bilikləri yoxlanılıb. Növbəti mərhələdə isə namizədlər komissiya üzvləri ilə müsahibədən keçiblər.**

Rezidentura üzrə imtahan komissiyasına müxtəlif ixtisaslara dair mütəxəssislər daxildir. Müsahibədən sonra komissiyanın yekun rəyi nəticəsində Bu il ATU-nun Rezidentura şöbəsinə müraciət etmiş 32 nəfərdən 14 xarici vətəndaşın qəbul olunmasına dair qərar verilib.

Qeyd edək ki, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayevin sədri olduğu qəbul komissiyasına Ümumi işlər üzrə prorektor Nazim Adilov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, şöbənin müdir müavini, dosent Nigar Ələkbərova, Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova, həmin şöbənin müdir müavinləri, dosent Ləman Əlizadə, baş müəllim Əfsanə Məmmədova və şöbənin müfəttişi Aytac Dəmirova daxildir.

# QS beynəlxalq reytinq agentliyinin iştirakı ilə təlim baş tutub

**Sentyabrın 18-19-da Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı və QS beynəlxalq reytinq agentliyinin regional direktoru Sergey Xristolyubovun iştirakı ilə ali təhsil müəssisələrinin beynəlxalq reytinqlər üzrə məsul şəxsləri arasında növbəti təlim və komanda quruculuğu görüşü baş tutub.**



Tədbirdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev və İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva da iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Dövlət Agentliyinin direktoru Ülkər Səttarova əsas hədəfin yerli universitetlərin beynəlxalq reytinqlərdəki mövqeləri deyil, müəssisələrin daxilində təhsil və elmi prosesləri əks etdirməsi olduğunu bildirib. Eyni zamanda beynəlxalq reytinqlərdə iştirakın ali təhsil müəssisələrinin beynəlxalq nüfuzunun artırılması üçün yaratdığı imkanların və qarşıda duran hədəflərə nail olmaq üçün təhsil müəssisələri arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Direktor qeyd edib ki, ali təhsil müəssisələrinin siyasətinin və uzunmüddətli strategiyasının müəyyənləşdirilməsi üçün beynəlxalq reytinqlərdə iştirak nəticəsində üzə çıxan təhlillər vacib amillərdən biridir.

QS agentliyinin regional direktoru S.Xristolyubov "Ali təhsil müəssisələrinin qlobal rəqabətə davamlılığının artırılmasında reytinqlərin rolu" mövzusunda təqdimatla çıxış edib və Azərbaycan üzrə təhlil məlumatlarına əsaslanan hesabatları diqqətə çatdırıb.

Görüşdə reytinq göstəriciləri üzrə mövqelərin yaxşılaşdırılması üçün yaradılan imkanlar və prosesdə ortaya çıxan çətinliklər barədə geniş müzakirələr aparılıb. Sonda sessiya iştirakçılarına sertifikatlar verilib.

Qeyd edək ki, "Beynəlxalq görünürlük, beynəlmiləlləşmə və inkişaf" mövzularında məlumatlılığın artırılması məqsədilə təşkil olunmuş sessiyada 30 ali təhsil müəssisəsindən nümayəndələr iştirak edib.

# Təhsil krediti ilə bağlı tələbələrlə görüş keçirilib



**Sentyabrın 24-də Elm və Təhsil Nazirliyinin nəzdində olan Təhsil Tələbə Krediti Fondunun (TTKF) Təhsil müəssisələri ilə iş şöbəsinin aparıcı mütəxəssisi Aysel Hacıyeva ATU-nun tələbələri ilə maarifləndirici görüş keçirib.**

ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev çıxış edərək tələbələrin təhsil haqqını ödəməsi baxımından bu fondun yaradılmasının böyük əhəmiyyət daşıdığını bildirib. Ölkəmizdə insan kapitalının inkişafı ilə bağlı reallaşdırılan bir sıra dövlət proqramlarına toxunan prorektor, sosial dövlət olan Azərbaycanın daxili siyasətinin mərkəzində insan amilinin dayandığını qeyd edib və daha çox həssas ailələrdən olan təhsilalanlara maddi dəstəyin göstərilməsi məqsədinə xidmət edən TTKF-in önəmini vurğulayıb. Əlavə edib ki, bu fondun şərtləri və imkanları sayəsində ödənişli təhsil indi daha əlverişlidir: "Bu gün ölkəmizdə gənclərə və eləcə də ali təhsil müəssisələrində təhsil alan tələbələrə dövlət tərəfindən xüsusi diqqət göstərilir. Hazırda təbiq olunan sosialyönümlü yeni layihələr, proqramlar da tələbələrimizin ali təhsil zamanı daha uğurlu nəticələr qazanmasına və təhsil prosesində onlara dəstək göstərilməsinə xidmət edir".

Tədbirdə çıxış edən Aysel Hacıyeva TTKF-in 2021-ci ildə Prezident İlham Əliyevin fərmanı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradıldığını bildirib. O, TTKF-in fəaliyyət istiqamətləri, fonda müraciət qaydaları, təhsil tələbə kreditlərinin verilməsi meyarları barədə geniş təqdimatla çıxış edib. A.Hacıyevanın sözlərinə görə, təhsil kreditlərinin sosial və standart növləri mövcuddur. Sosial təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr istifadə edə bilərlər. Sosial kredit almaq hüququ olmayan tələbələr isə təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) etibarən standart kredit almaq hüququna malikdirlər.

Bildirilib ki, fondun əsas məqsədi ölkədə təhsilin hamı üçün, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığını təmin etməkdir. TTKF-in nümayəndəsi bu sahədə həyata keçirilən layihələr haqqında da ətraflı məlumat verərək tələbələri onlar üçün yaradılan imkanlardan faydalanmağa çağırıb.

Sonda iştirakçıları düşündürən suallara aydınlıq gətirilib.

# "Cərrahi platforma"nın təqdimatı keçirilib

## Bu tədris portalı tələbə və rezidentlər üçün nəzərdə tutulub

**Tədris Cərrahiyyə Klinikasında "Cərrahi platforma" adlı çoxdilli və çoxfunksiyalı tədris portalının təqdimatı keçirilib. ATU-nun I Cərrahi xəstəliklər kafedrasının və İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları tərəfindən hazırlanan portal tələbələr və rezidentlər üçün nəzərdə tutulub.**



Təqdimat mərasimində çıxış edən Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərov yeni formatda hazırlanmış portalın cərrahi xəstəliklərin tədrisində tələbələr üçün çox faydalı olacağını bildirib. O, portalda ümumi cərrahiyyəyə dair məlumatlarla yanaşı, patologiyalar, cərrahiyyənin müxtəlif istiqamətləri üzrə müasir biliklərin yerləşdirildiyini bildirib.

AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev təhsildə keyfiyyətin artırılmasında rəqəmsal proqramların mühüm rol oynadığını qeyd edib. Təhsil və elmin inkişafında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nümunəsi kimi "Cərrahi platforma"nın bütün istifadəçilər üçün xeyirli olacağına əminliyini bildirib.

Professor Məmməd Kərimov və ATU-nun Şüa diaqnostikası kafedrasının müdiri, professor Məlahət Sultanova çıxış edərək, elektron elmə keçid sahəsində bu cür platformaların əhəmiyyətini vurğulayıblar.

Daha sonra AMEA-nın müxbir üzvü, I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov tədbir iştirakçılarına saytı təqdim edib. Əsasən 3 bölmədən ibarət olan portalda istifadəçilər anatomiya və fiziologiya, differensial diaqnoz, əməliyyatlara dair müxtəlif məlumatlarla tanış ola bilərlər. Platformada müxtəlif kateqoriyalar üzrə axtarışın tətbiqi istifadəçilərin istədikləri məlumatı daha tez və rahat əldə etməsinə yardımçı olacaq.

# Stomatologiya fakültəsinin dekanlığı tələbələrə tövsiyələr verib

**Sentyabrın 26-da Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsi dekanlığının kurslar üzrə qrup nümayəndələri ilə görüşü keçirilib. Tədbiri giriş sözü ilə Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva açıb.**





O, tələbələri 2024-2025-ci tədris ilinin başlanması münasibəti ilə təbrik edib, onlara uğurlar arzulayıb. Sonra sözü universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərova verib. Prorektor tələbələri mühazirələrə gecikməməyə, dərsə davamiyyətə və nizam-intizama ciddi əməl etməyə çağırıb. Bəzi çatışmazlıqlara toxunan prorektor, tələbələrin keyfiyyətli təhsil almasında davamiyyət və nizam-intizamın ciddi faktor olduğunu diqqətə çatdırıb. Eyni zamanda, hansısa problemləri yaranarsa, həmişə onların yanında olacağını və ona müraciət etmələrini söyləyib: "Yaxşı təhsil almağınız, dərslərinizi yaxşı mənimsəməniz üçün universitetimizdə hər cür şərait yaradılıb. İnanıram ki, sizlərdən bu imkanlardan lazımınca bəhrələnəcək, eyni zamanda nizam-intizam qaydaları ilə bağlı çatışmazlıqları aradan qaldıracaqsınız".

Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Qoşqar İsmayılov çıxışında rəhbərlik etdiyi qurumun fəaliyyətindən söhbət açıb. Bildirib ki, tələbələrin nizam-intizam qaydaları ilə bağlı məlumatlandırılması, onların asudə vaxtlarının səmərəli təşkili, elmi konfranslarda aktiv iştiraklarının təmin edilməsində THİK aktiv rol oynayır: "Komitənin nəzdində 10-dan artıq klub fəaliyyət göstərir. Onlardan "İntellektual oyunlar", "Teatr", "Rəsm", "Kitab" və başqa klubların adlarını çəkə bilərəm. "İntellektual oyunlar" komandamız artıq iki ildir ki, universitetlərarası oyunlarda birinciliyi qoruyub saxlayır. Universitetin "Hilal" Yardım Cəmiyyətinin vasitəsilə biz hər il vaxtaşırı imkansız insanlara baş çəkir, onları müayinə edir, hədiyyələr verirk. Bundan başqa, dövlət əhəmiyyətli və əyləncəli tədbirlər də təşkil edirik".

Q.İsmayılov tələbələri bu klublarda, keçirilən tədbirlərdə fəal iştirak etməyə çağırıb.

Dekan E.Əliyeva tələbələrin nizam-intizam qaydalarına riayət etməmələri ilə bağlı faktların olduğunu təsdiqləyib: "Artıq ikinci həftədir dərslər başlayıb, amma hələ də gecikmə halları müşahidə olunmaqdadır. Bəzən tələbələr xalatsız dərslərə gəlir. Eləcə də dərs zamanı telefonla oynayır, yazışır, mühazirələrə fikir vermirlər. İntizamsız tələbələr düşünməsinlər ki, tövsiyə və xəbərdarlıqlarımızdan nəticə çıxarmasalar, təhsillərini heç nə olmamış kimi davam etdirə biləcəklər. Məlumat üçün deyim ki, zərurət olarsa, biz məsələni İntizam Komissiyasında qaldıra bilərik. Əgər komissiya onların universitetdən xaric edilmələri barədə qərar qəbul etsə, bir daha universitetə bərpa olunmurlar".

Dekan müavini Aysel Həşimova aparılan yoxlamalar və kafedralardan alınan məlumatlar haqda danışıb. Qeyd edib ki, bəzi tələbələrin kobud davranışları gözdən yayınmır: "Qrup nümayəndələrindən xahiş edirəm ki, öz tələbə yoldaşlarına davranışlarına diqqət yetirmələrini çatdırsınlar. Əgər hansısa tələbənin müəllimlə bağlı problemi varsa, bu barədə dekanlığa yazılı və şifahi şəkildə müraciət etsin, araşdıraq və problemi aradan qaldıraq".

Görüş zamanı tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb, səsləndirilən problemlərin diqqətdə saxlanılacağı bildirilib.

# Həmkarlar İttifaqı Komitəsinin fəaliyyət sahəsi çox genişdir

## Dosent Cahangir Qasımov: Əməkdaşlarımızın qanuni hüquqları hər zaman qorunub və qorunmaqdadır

**Müsahibimiz Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovdur.**



**- Cahangir müəllim, həmkarlar ittifaqları ölkəmizdə əmək hüquqlarının qorunmasında, işçilərin sosial məsələlərinin həllində mühüm rola malikdir. Bu baxımdan istərdik ki, ATU Həmkarlar İttifaqı Komitəsinin keçdiyi yol haqqında məlumat verəsiniz. Hazırda bu sahədə vəziyyət nə yerdədir?**

- Digər ali məktəblərdə olduğu kimi, Azərbaycan Tibb Universitetində də Həmkarlar İttifaqı Komitəsi əməkdaşların hüquqlarının müdafiəsi, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərən ictimai təşkilatdır. Qurumun nizamnaməsində də bu öz əksini tapıb. Əməkdaşların hüquqlarının müdafiəsindən söz düşmüşkən, nəzərinizə çatdırım ki, Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri olaraq ATU-da yaradılmış İxtisar və Nizam-intizam komissiyalarının da üzvüyəm. Bu komissiyalar əməkdaşların əsas problemlərini daim diqqətdə saxlayır və imkan daxilində həllinə çalışır. Xatırladım ki, son illərdə bir neçə kafedra bağlandı və həm yaşa, həm də ixtisas uyğunsuzluğuna görə bəzi əməkdaşlarımız ixtisara düşdü. Təbii ki, ixtisar komissiyasının üzvlərindən biri olaraq müzakirələrdə hər zaman öz sözümü demişəm və bilikli, layiqli əməkdaşların universitetimizdə saxlanılmasının tərəfdarı olmuşam. Məmnunluq hissi ilə bildirirəm ki, komissiya Həmkarlar İttifaqı Komitəsinin mövqeyini yüksək qiymətləndirərək həmişə bizim fikirimizi nəzərə alıb. Bundan əlavə, Universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyovun çox uğurla rəhbərlik etdiyi Nizam-intizam komissiyasında da HİK sədri olaraq mənim fikirlərimə xüsusi önəm verilib. Yeri gəlmişkən, bir məqama da toxunum ki, bəzi əməkdaşlar arasında yanlış fikir formalaşıb. Onlar hesab edirlər ki, Həmkarlar İttifaqı Komitəsi hətta nizam-intizam qaydalarını pozan, üzrsüz səbəbdən işə gəlməyən əməkdaşların da hüquqlarını müdafiə etməlidir. Əslində isə belə deyil. Bizim əsas vəzifəmiz insanların qanuni hüquqlarını müdafiə etməkdir. Əgər biz hansısa əməkdaşın günlərlə işə gəlməməsinə göz yumarıqsa, bu o deməkdir ki, həmin əmələ şərait yaradılır, digər tərəfdən isə savadlı, qabiliyyətli, vicdanlı əməkdaşların haqqına girmiş oluruq. Əmək Məcəlləsində də belə bir müddəa var ki, işçi işdən çıxarılarsa, mütləq Həmkarlar İttifaqı Komitəsinin razılığı olmalıdır. Bir nümunə deyim. Bir il əvvəl pediatriya kafedralarından birinin əməkdaşının işdən çıxarılmasına razılıq verdik. Həmin əməkdaşın özbaşına, heç kimə demədən bir gün əvvəl dərsi onlayın keçməsi, iş vaxtı yaşadığı rayona getməsi nəticəsində xoşagəlməz hadisə baş verdi. Əgər həmin müəllim dərsi öz vaxtında keçsə idi, tələbənin başına da o hadisə gəlməzdi. Belə olan hallarda biz tələbənin hüququnu necə müdafiə etməyək? Təbiidir ki, belə qanun pozuntusuna görə biz həmin müəllimin işdən azad olunmasına razılıq verdik. Bir daha vurğulayıram ki, biz əməkdaşların yalnız qanuni hüquqlarını qorumuşuq, qoruyuruq və bundan sonra da qorumaqda israrlıyıq.



**- Universitet əməkdaşlarının yay istirahətinin təşkilində də Həmkarlar İttifaqı Komitəsinin fəaliyyəti danılmazdır. Bu barədə nə deyərdiniz?**

- Doğrudur, HİK-in əsas vəzifələrindən biri də əməkdaşların istirahət və müalicəsini, asudə vaxtının səmərəli təşkilini həyata keçirməkdir. Bu barədə danışanda ilk növbədə Nabranda yerləşən "Təbib" idman-sağlamlıq düşərgəsinin adını çəkməliyəm. Xatırladım ki, professor Gəray Gəraybəyli universitetimizə rektor təyin ediləndən qısa müddət sonra "Təbib" düşərgəsinə gəldi. Yəqin siz də xatırlayırsız, burada vəziyyət xoşagələn deyildi. İstirahət otaqlarının çoxu təmirsiz, mətbəx və sanitar qovşaqları ümumi idi. Yol vərəqəsi alıb istirahətə gedən əməkdaşlar özləri ilə qazan, qab-qacaq aparır, mətbəxdən paylanan xörəkləri istirahət etdikləri otağın qarşısına daşıyırdılar. Təbii ki, ən çox əziyyət çəkən xanımlar olurdu. Hörmətli rektorumuz "Təbib" istirahət düşərgəsinə ilk baxışı zamanı Həmkarlar İttifaqı Komitəsi qarşısında belə bir şərt qoydu ki, qısa müddət ərzində buradakı vəziyyət tamamilə dəyişməlidir. Biz rektorun tapşırığı ilə əməkdaşların qidalanmasını yaxşılaşdırmaq üçün ən uyğun yer seçərək 2016-cı il noyabrın 20-də yeməkxananın bünövrəsini qoyduq. Şaxtalı qış aylarında da işimizi davam etdirərək çox qısa müddətdə yeməkxananın tikintisini tam başa çatdıra bildik. 2017-ci il iyunun 4-də o vaxtkı səhiyyə naziri Oqtay Şiraliyev yeməkxananın açılışında iştirak etdi. İkinci mərhələdə otaqların şəraitini yaxşılaşdırmağa başladıq. 2018-ci ildə 4-cü korpusun təmiri ilə yanaşı, yeni korpuslar da inşa olundu. 2019-cu ildə daha bir mansardlı ev tikildi. 2020-ci ildə pandemiyaya baxmayaraq, fəaliyyətimizi davam etdirdik. O vaxt ərzaq mallarının və inventarların saxlanıldığı anbar yararsız vəziyyətə düşmüşdü. Onu da yenilədik.



Hal-hazırda istirahət ocağı görkəmini tamamilə dəyişib. Bu gün 86 nəfər əməkdaşın istirahəti üçün hər cür şərait yaradılıb. Ümumilikdə bu il "Təbib" istirahət düşərgəsində təqribən 120 ailə, 450 nəfər əməkdaşımız istirahət edib. Artıq 3-cü korpusun əsaslı təmirinə başlamışıq. Düşünürəm ki, əməkdaşların növbəti istirahət mövsümünə qədər təmir işlərini başa çatdıra biləcəyik. Məlumat üçün bildirim ki, yay istirahəti zamanı hər bir əməkdaş bir günlük istirahətinə cəmi 12-18 manat pul ödəyir, bunun müqabilində isə gündə 3 dəfə yeməklə təmin olunmaqla mənalı istirahət edir. Halbuki, bir nəfərin 10 gün "Təbib" istirahət düşərgəsində dincəlməsi Həmkarlar İttifaqı Komitəsinə 1156 manata başa gəlir. Demək olar ki, bütün otaqlar televizor, soyuducu və zəruri məişət avadanlıqları ilə təchiz edilib. Həmçinin yeməkxanaya və onun ətrafına internet çəkdirmişik, növbəti illərdə otaqları da internetlə təmin edəcəyik. Bir faktı da söyləyim ki, artıq 2025-ci il üçün yol vərəqələrinin 80 faizi, o cümlədən dənizə baxan tərəfdə 7 müasir ev, 4-cü korpusun bütün otaqları, hətta təmir edəcəyimiz 3-cü korpusun otaqlarının böyük qismi bron olunub. Bu faktın özü əməkdaşlarımızın istirahəti üçün yaradılan şəraiti dəyərləndirməsinin göstəricisidir. Məhz bu şəraitə görə ilk növbədə rektorumuz, professor Gəray Gəraybəyliyə öz təşəkkürümüzü bildiririk. Xüsusi vurğulamaq istərdim ki, Gəray müəllim həmişə "Təbib" istirahət düşərgəsində aparılan tikinti işləri, alınan inventarlarla şəxsən maraqlanıb, Həmkarlar İttifaqı Komitəsinə əlindən gələn köməyi göstərib. Rektorun təşəbbüsü və tələbi, eləcə də HİK-in fəaliyyəti nəticəsində bu yüksək səviyyəyə gəlib çatmışıq.

Bundan əlavə, 2017-ci ildən bu günə qədər, 2020-ci ildə pandemiya dövrünü çıxmaq şərti ilə, əməkdaşlarımızı Masallı, Lerik, İsmayıllı, Qax, Nabran, Naftalan və Bakı ətrafında yerləşən müxtəlif müalicə ocaqlarına, sanatoriyalara da göndərmişik.

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Qusar rayonunda yerləşən "Şəfa" istirahət ocağında dincəlməsi üçün də Tibb Universitetinin əməkdaşlarına yol vərəqələrinin verilməsinə həmişə xüsusi diqqətlə yanaşılıb. Bu istirahət ocağına məzuniyyət dövründə 7 günlük, əməkdaşın məzuniyyətdə olmadığı ilin bütün fəsillərində 2 günlük yol vərəqələri verilir. Bütün hallarda yol vərəqəsi verdiyimiz əməkdaşların hamısı qiymətin ancaq 15 faizini ödəyiblər və onlara göstərilən xidmətdən razı qaldıqlarını bildiriblər. Bu proses davamlı olacaq və əməkdaşlarımızın gələcəkdə də istirahət hüquqlarından səmərəli istifadə edəcəklərinə əminəm.

**- Bəs tələbə yataqxanaları ilə bağlı vəziyyət necədir?**

- Məlumdur ki, mənzil-məişət şəraiti baxımından bütün ali məktəblərin ən çətin problemi tələbə yataqxanaları ilə bağlıdır. Universitetimizdə tələbələrin yataqxanalarla təminatı məsələsinə 30 ilə yaxındır ki, mən məsulam. Son illər yataqxanalarda xeyli təmir-abadlıq işləri aparılıb, tələbələrin yaşayış şəraitinin yaxşılaşdırılması üçün ciddi tədbirlər görülüb. Universitet rektorluğu və Həmkarlar İttifaqı Komitəsi yataqxanalardakı vəziyyəti daim diqqət mərkəzində saxlayıb. Çünki təkcə təmir etməklə iş bitmir, həmçinin bu təmiri qoruyub saxlamaq bizlərin və dekanlıqların üzərinə düşür. Ona görə də 2016-2017-ci tədris ilindən etibarən yataqxanada yaşayan tələbələrlə müqavilə imzalanmasına başlanıldı. Bu müqaviləyə nizam-intizam, o cümlədən yaşadığı müddətdə tələbənin yataqxananın təmirinə və inventarlarına zərər vurmaması haqqında müddəalar əlavə olundu.

Yerli tələbələr 100 faiz yataqxana ilə təmin olunduğundan, qəbul üçün hər hansı bir kriteriya qoyulmur. Əcnəbi tələbələrin də yataqxana təminatı qənaətbəxşdir. Şəhid ailələrindən olan və ya valideyn himayəsindən məhrum uşaqlar yataqxanaya ödənişsiz yerləşdirilir. Qazi övladlarına isə güzəşt edilir. Hazırda 3 saylı yataqxanamız təmirə dayanıb. Fəaliyyət göstərən 4 yataqxanada otağın tutumundan asılı olaraq aylıq qiymət 60-120 manat arasında dəyişir.

**- Universitetimizdə mədəni, sosial tədbirlərin keçirilməsində də əsas təşkilatçı kimi həmişə Həmkarlar İttifaqı Komitəsini görürük.**

- Bu tədbirlərlə yanaşı, vətənpərvərlik mövzusunda, o cümlədən yubiley tədbirlərinin təşkil edilməsində HİK xüsusi fəallıq göstərir. Universitetin qızlardan ibarət "Çinar" rəqs və "Şəfa" xalq çalğı alətləri ansamblları daim Həmkarlar İttifaqı Komitəsinin diqqət mərkəzindədir. Nəzərinizə çatdırmaq istərdim ki, "Çinar" ansamblının 2019-cu il noyabrın 6-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında 60 illik yubileyi keçirildi. Vaxtilə xalq artisti Əminə Dilbazinin rəhbərlik etdiyi ansambl nəinki universitetimizi, hətta Azərbaycan mədəniyyətini və incəsənətini xarici ölkələrdə layiqincə təmsil edir. 2022-ci il mayın 4-də "Şuşanın dağları" adlı ədəbi-bədii gecə, həmin il noyabrın 6-da "Zəfər" bayramı ilə əlaqədar möhtəşəm bir tədbir, 2023-cü ildə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə, həmin ilin sonunda isə "Bütöv Azərbaycan" və "Bu elin soyu bir, kökü bir" adlı ədəbi-bədii gecə keçirilib.

Filarmoniyada tədbir keçirilən vaxt çox adam mənə yaxınlaşıb soruşurdu ki, "Şəfa"nın bədii rəhbəri, ssenari yazanı kimdir? Bədii rəhbər, rejissor olmadan bu tədbirlərin belə yüksək səviyyədə keçirilməsi hamını təəccübləndirirdi. Bir sirr açım ki, bu ssenariləri həmişə hörmətli rektorumuzun tövsiyələri və qeydləri əsasında hazırlamışıq. İndi bu cür tədbirlərə maraq xeyli artıb. Universitetimizn 450 yerlik ən böyük akt zalı artıq tədbirlərimizin tamaşaçılarını tutmur. Hər kəs könüllü və həvəslə gəlir, zövq alır. Əməkdaşların iş vaxtından sonra da istirahətini təşkil etmək üçün dəfələrlə teatrlara HİK-in hesabına biletlər alınıb. Hər il ənənəvi olaraq məzunların buraxılış gecələrinin təşkili də bilavasitə Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətinin nəticəsidir.

Görülən bu işlərlə yanaşı, əməkdaşlarımızın ailələrini də yaddan çıxarmırıq. Novruz və Yeni il şənliklərində əməkdaşların uşaqlarına biletlər paylanılır. Hər bayramda 1000-1200 əməkdaşın uşaqlarına biletlər və ya hədiyyələr verilir. Şəhid ailələrini də heç vaxt unutmuruq. Onlara maddi köməklik göstərir, hər Yeni il, Novruz bayramlarında biletlər hədiyyə edir, Zəfər bayramında mükafatlandırırıq. Rektor çay süfrəsi arxasında onlarla görüşür, qayğıları ilə maraqlanır. Ümumiyyətlə, şəhid ailələrinə qayğı göstərmək, maddi və mənəvi dəstək vermək təkcə universitet rəhbərliyinin, komitənin yox, hər bir əməkdaşın borcudur.



Bir sözlə, universitet həyatı ilə bağlı bütün tədbirlərdə Həmkarlar İttifaqı Komitəsi yaxından iştirak edir, öz işini daha da təkmilləşdirir və əməkdaşların qanuni mənafelərinin qorunması, sosial problemlərinin həlli istiqamətində var qüvvəsi ilə çalışır.

**Arif MƏMMƏDLİ**

# ATU-nun kafedra müdiri beynəlxalq konfransda çıxış edib



**ATU-nun Elmi Tədqiqatların İdarə edilməsi Departamentinin rəhbəri, Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev 19-21 sentyabr tarixlərində Özbəkistanın Daşkənd şəhərində keçirilmiş beynəlxalq elmi konfransa qatılıb.**

S.Y.Yunusov adına Bitki Maddələrinin Kimyası İnstitutunda təşkil edilmiş, "Təbii birləşmələr kimyasının aktual problemləri" mövzusuna həsr olunmuş tədbirin plenar iclasında əməkdaşımız məruzə ilə çıxış edib. Konfransda toksikologiya, biologiya, farmakologiya, təbii və sintetik bioloji fəal birləşmələrin kimyası sahələrinin aktual problemləri müzakirə olunub.

Konfransa 10-dan artıq ölkədən, o cümlədən Rusiya, Qazaxıstan, Meksika, Çin, Qırğızıstan, Pakistandan bu sahə üzrə çalışan tədqiqatçı alimlər qatılıb. İştirakçılar apardıqları elmi-tədqiqat işlərini nümayiş etdirib, sonda institutun direktoru akademik Ş.Ş.Saqdullayev tərəfindən sertifikat və hədiyyələrlə təltif olunublar.

**Sentyabrın 20-də Azərbaycan Tibb Universiteti, Azərbaycan İqtisad Universiteti və Xanım Tədqiqatçılar Şurasının birgə təşkilatçılığı ilə ATU-nun Tədris Terapevtik Klinikasında "Elmi-tədqiqat layihələrinin idarə edilməsi" mövzusunda təlim baş tutub.**

# "Elmi-tədqiqat layihələrinin idarə edilməsi" mövzusunda təlim keçirilib

## Rauf Bəylərov: Bu gün elmi iş aparırıqsa, zamanın tələbidir ki, onu satışa da çıxaraq

Tədbiri giriş sözü ilə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov açıb. O, ilk növbədə ATU-da Elmi Tədqiqatların İdarə Edilməsi Departamentinin yaradılması haqqında məlumat verərək bildirib ki, departamentin əsas vəzifəsi potensial imkanların müəyyənləşdirilməsi, o cümlədən inkişaf proqramının və strateji istiqamətlərin göstəricilərinin əldə olunması üzrə sistemi işin qurulmasıdır. Universitetin keyfiyyət təminatına və inkişafına yönəlmiş prosedurların təhlili və icrasının departamentin prioritet işlərinə aid olduğunu deyən prorektor, bunun nəticəsi olaraq alimlərimizin və gənc tədqiqatçılarımızın artıq beynəlxalq elmi platformalara çıxdığını vurğulayıb. Qeyd edib ki, hər bir elmi tədqiqat işi potensiallaşdırılmalıdır: "Yəni bu gün biz elmi iş aparırıqsa, onu satışa çıxarmalıyıq. Bu, zamanın tələbidir, biliyimizi kimsə almalıdır".

Beynəlxalq elmi şəbəkələşmənin vacibliyinə də toxunan R.Bəylərov, son 4 ayda elmi tədqiqatları dünyanın nüfuzlu jurnallarında dərc olunan alimlərimizə qonorarlar verildiyini müsbət hal kimi dəyərləndirib. Hələlik bu qonorarları daha çox kimyaçılar və əczaçıların aldığını, gələcəkdə klinik işlərin də bu istiqamətdə uğur qazanacağına əminliyini söyləyib.





Beynəlxalq tədqiqatlara cəlb edilmək baxımından müştərək təlimlərin əhəmiyyətindən danışan prorektor, müzakirəyə çıxarılan mövzunun aktuallığına diqqət çəkərək, təlimin işinə uğurlar arzulayıb.

Bundan sonra Federal İsveçrə və ABŞ Weiser təqaüdçüsü, UNEC Xanım Tədqiqatçılar Şurasının rəhbəri, UNEC-in Elmi fəaliyyətin təşkili şöbəsinin müdiri dr. Nərgiz Hacıyeva təlimə başlayıb. Əvvəlcə özünəinam hissinin zəruriliyindən söz açan təlimçi, elmin beynəlmiləlləşdirilməsində kiçik qrantların rolundan danışıb. Eyni zamanda, təəssüf hissi ilə Azərbaycanda elmi şəbəkələşmənin çox zəif olduğunu söyləyib. Onun sözlərinə görə, ancaq müxtəlif insanların innovativ yenilikçi fikirlərini bir yerə cəmləşdirməklə layihələr yazıla bilər. Təlimçi layihələrin hazırlanmasında savad və sürətin, həmçinin tərəfdaş tapmağın xüsusi önəm daşıdığını deyib. Məsələn, Erasmus təqaüdünə müraciət etmək üçün ən vacib kriteriyalardan biri 4 yerli və 4 xarici universitetin bir araya gəlməsidir.

Daha sonra elmi-tədqiqat layihələrinin idarə edilməsində digər mühüm amillərə aydınlıq gətirən təlimçi, mövcud problemlər və ehtiyaclara diqqət, əvvəlki layihələrin araşdırılması, aydın məqsədlər və nəticələr, büdcə planlaması və resursların idarə olunmasına dair təqdimatlar edib.

Təlimin məqsədi müvafiq sahələr üzrə mütəxəssislərin layihələrin idarə olunmasının prosedurları və metodologiyası barədə məlumatlandırılması, bilik və bacarıqlarının artırılması, təcrübədə tətbiqini mənimsəməsi olub. Tədbir çərçivəsində iştirakçılara layihələrin idarə olunması mərhələlərinin hər biri ətraflı şəkildə izah edilib.

İnteraktiv şəraitdə keçən, müxtəlif kafedraların əməkdaşları, eləcə də rezident və tələbələrin qatıldığı təlimin sonunda mövzuya aid suallar cavablandırılıb.

# Əməkdaşlarımız Vyanadan qayıdıb

**Ağciyər xəstəlikləri kafedrasının əməkdaşları – kafedra müdiri, dosent Rafiq Bayramov və dosent Ceyhun İsmayılzadə bu günlərdə Avropa Respiratorlar Cəmiyyətinin konqresində iştirak ediblər.**



Ənənəvi olaraq hər il keçirilən konqres bu il Avstriyanın paytaxtı Vyana şəhərində təşkil olunub. Konqresdə dünyanın dörd bir yanından 20 minədək nümayəndə iştirak edirdi. 5 gün ərzində müxtəlif ağciyər xəstəlikləri (bronxial astma, AXOX, interstisial ağciyər xəstəlikləri, ağciyər xərçəngi və s.) haqqında çoxsaylı təqdimatlar və fikir mübadilələri aparılıb. Konqresin işində dünyaca məşhur pulmonoloq-ekspertlərin müxtəlif respirator xəstəliklər haqqında təqdimatları və rəyləri də geniş yer alıb.

Qeyd etmək lazımdır ki, məşhur pulmonoloq alimlərin məruzə etdiyi belə mötəbər konqresdə ölkəmizin təmsil olunması və eləcə də tibbin bu sahəsi üzrə elmin son nailiyyətləri ilə tanış olmaq mühüm əhəmiyyətə malikdir.

# Beynəlxalq tədbirdə təmsil olunmuşuq




**Azərbaycan Tibb Universiteti daha bir beynəlxalq tədbirdə uğurla təmsil olunub. Belə ki, dosent Nigar Sultanova Avropa Antropoloqlar Assosiasiyasının 23-cü konfransında məruzə ilə çıxış edib.**

Xorvatiyanın paytaxtı Zaqreb şəhərində keçirilən konfransda dünyanın müxtəlif ölkələrindən elm adamları, həkim-genetiklər, antropoloqlar iştirak ediblər. Tədbirin açılışında ABŞ-ın Pensilvaniya və Nyu Heven universitetlərinin professoru, dünyanın ən çox istinad edilən alimləri sırasında olan Draqan Primoracın məruzəsi dinlənilib.

Konfrans çərçivəsində N.Sultanova "Three-dimensional database of facial anthropometric parameters of Azerbaijan population" mövzusunda doktorluq elmi işinin nəticələrini təqdim edib. Əməkdaşımız məruzəsində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan qazıntılar vaxtı I Qarabağ müharibəsi zamanı itkin düşmüş hərbçilərin və mülki şəxslərin qalıqlarının tapılmasına dair məlumatı da çatdırıb.

# NATO SPS proqramı barədə "Məlumatlandırma günü" olub

**Sentyabrın 26-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və NATO-nun İnnovasiya, hibrid və kibermәsələlər üzrə bölməsinin birgə təşkilatçılığı ilə ADA Universitetində NATO Sülh və Təhlükəsizlik naminə Elm proqramı (Science for Peace and Security-SPS) barədə "Məlumatlandırma günü" keçirilib.**



Azərbaycan Tibb Universitetini tədbirdə Startap və elmi tədbirlərin koordinasiyası şöbəsinin müdiri, dosent Müşfiq Həsənov və Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Ələkbərova təmsil ediblər.

Tədbirdə NATO Baş katibinin İnnovasiya, hibrid və kibermәsələlər üzrə köməkçisinin müavini Ceyms Appaturay virtual qaydada, o cümlədən NATO SPS proqramının əməkdaşları, ölkəmizdən isə NATO ilə əməkdaşlıq üzrə aidiyyəti dövlət qurumları, həmçinin Elm və Təhsil Nazirliyinin nəzdində əlaqədar institutların nümayəndələri iştirak ediblər.

Tədbir zamanı SPS proqramı, onun prioritetləri, həmçinin Azərbaycan və NATO arasında praktiki əməkdaşlığa dair həyata keçirilmiş və cari layihələrə aid geniş təqdimatlar təqdim olunub. Bundan əlavə, meydana gələn təhlükəsizlik problemlərinin həllində elm və texnologiyanın rolu barədə müzakirələr aparılıb.

**Artıq 4-cü ildir ki, sentyabrın 27-də ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Tibb Universitetində də Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi böyük ehtiramla yad edilir.**

# Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb



Tibbi mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları anım tədbirini hərbi həkim şəhidlərin xatirəsinə həsr olunmuş stendin önündə keçiriblər. Hərbi tibb fakültəsinin II kurs tələbələrinin də qatıldığı tədbirdə kafedranın müdiri, professor Həqiqət Qədirova, kafedranın müəllimləri Səidə Hacıyeva və Təranə Süleymanova tarixi Zəfərimizdən, Vətən müharibəsində igid əsgər və zabitlərimizlə bərabər ATU məzunlarının da misilsiz şücaət göstərməsindən qürurla söhbət açıblar. Haqq savaşımızda şəhidlik zirvəsinə ucalan igid Vətən övladlarının xatirəsinin daim xalqımızın qəlbində yaşayacağı vurğulanıb.

# THİK rəhbərliyi I kurs tələbələri ilə görüşüb



Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tərəfindən I kurs tələbələri ilə görüş keçirilib. THİK sədri Qoşqar İsmayılov tələbələri yeni tədris ili münasibətilə təbrik edərək, onlara universitetimizin strukturu, rektor, professor Gəray Gəraybəylinin tələbələrimizə və THİK komandasına dəstəyindən danışıb. Q.İsmayılov, eyni zamanda komitənin fəaliyyəti və planları, təhsil-tədris prosesi, müəllimlərlə münasibət, yataqxanalardakı şərait, daxili nizam-intizam qaydaları və s. mövzularda ətraflı məlumat verib.

THİK sədr müavini Zivər Hüseynova təşkilatın uğurları haqqında geniş məlumatı tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Daha sonra fakültələr üzrə sədrlər Gülay Novruzova (MPF-1), Aytac Şükürlü (MPF-2), Məryəm Kərimli (Stomatologiya), Solmaz Hüseynova (İctimai səhiyyə), Məhəmməd Nəzərli (Əczaçılıq), Zəki Musayev (Hərbi tibb) çıxış edərək tələbələrimizə zəruri məlumatlar veriblər.

Tədbirdə "Həyat" teatr klubunun sədri Fidan Əsədli, "İntellektual oyunlar" klubunun sədri Arzu Musayeva, "Yaradıcılıq" klubunun sədri Sənan Quliyev, "Kitab" klubunun sədri Rüfət Həsənli, "Debat" klubunun sədri Aytac Yüzbəyova, "Rəsm" klubunun sədri Reyhan Nəsibli, "Şəxsi inkişaf və psixoloji təlimlər" klubunun sədri Nəriman İskəndərov, VOİS klubunun sədri Faysal Badawi, "Kiberidman" klubunun sədri Bəhruz Abasov çıxış edərək, klubların fəaliyyəti, görülən işlər və gələcək layihələrdən bəhs ediblər.

# Azərbaycan Pediatrlar Assosiasiyası tanınmış alimləri təltif edib

## Türkiyədə uşaqların sağlamlığına həsr olunmuş pediatriya konqresi keçirilib



**Türkiyənin İsparta şəhərində "Birinci Multidissiplinar Pediatriya Konqresi" olaraq Süleyman Dəmirəl Demokratiya və İnkişaf Muzeyinin ev sahibliyi və Süleyman Dəmirəl Universiteti Tibb fakültəsi Uşaq sağlamlığı və xəstəlikləri departamentinin dəstəyi ilə "4-cü Beynəlxalq Sağlam Böyüyən Uşaq Konqresi" keçirilib.**

Pediatriya Uzmanlıq Akademiyası Dərnəyinin (PUADER) 12-15 sentyabrda təşkil etdiyi konqresdə uşaq sağlamlığının gələcəyi və pediatriya ixtisasına maraq əsas mövzu olub. Üç gün davam edən tədbirdə kurslar, milli və beynəlxalq səviyyədə məruzəçilərin iştirak etdiyi panellər, konfranslar, şifahi və poster təqdimatları keçirilib.

Konqresdə ölkəmizi təmsil edən Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə tədbirin açılış mərasimində çıxış edib. Türk dünyasının həkimlərini bir arada görməkdən məmnunluq duyduğunu bildirən T.Tağı-zadə Azərbaycan və Türkiyə birliyi, dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə olduğu kimi, türk dövlətlərinin səhiyyəsinin inkişafına da töhfə verməkdə olduğunu deyib.

Azərbaycan Pediatrlar Assosiasiyasının tarixi haqqında məlumat verən T.Tağı-zadə qeyd edib ki, ki, təşkilatın 1930-cu ildən bəri fəaliyyəti dövründə əsas inkişaf mərhələsi türkiyəli alimlərin dəstəyi ilə başlayıb: "Müstəqillik dövründə Ulu Öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində APA-nın fəaliyyəti yüksək səviyyədə dəstəklənib. Assosiasiyanın o zamankı rəhbəri, Azərbaycanda elmi pediatriyanın banisi, akademik Adilə Namazovanın Türkiyənin görkəmli elm adamlarından biri, ictimai-siyasi xadim, Azərbaycanın və Ulu Öndər Heydər Əliyevin səmimi ürək dostu, Ümumdünya Pediatrlar Cəmiyyətinin sədri, professor İhsan Doğramacı ilə sıx dostluq əlaqələri Azərbaycan Pediatrlar Assosiasiyasının beynəlxalq tədbirlərdə ölkəmizi təmsil etməsinə əlverişli zəmin yaradıb".

T.Tağı-zadə bildirib ki, bu gün Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı kimi Prezident İlham Əliyevin diqqət və qayğısı, eyni zamanda, birinci xanım Mehriban Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə ölkə üzrə təhsil və səhiyyə ocaqlarının tikintisi, yenidən qurulması və modernləşdirilməsi sahəsində irimiqyaslı layihələr həyata keçirilir.

Çıxışının sonunda Təranə Tağı-zadə səhiyyə, təhsil və elmin inkişafına verdiyi töhfələrə görə PUADER-in idarə heyətinin sədri professor Bumin Dündara, Dəclə Universitetinin professorları İlyas Yolbaş və Velat Şenə Azərbaycan Pediatrlar Assosiasiyasının təşəkkür lövhəsi və döş nişanını təqdim edib.

Qeyd edək ki, professor Bumin Dündar Türkiyədə uşaq endokrinologiyası və diabet sahəsində ilk veb-saytların yaradıcısı, "Uşaq Endokrin Diabet Jurnalı"nın və "Uşaq Sağlamlığı TV"nin təsisçisi, professor İlyas Yolbaş Türkiyədə uşaq xəstəlikləri və sağlamlığı mövzusunda ən çox satılan kitabların müəllifidir. Professor Velat Şen isə Şərq Pediatriya Assosiasiyasının sədridir.

Pediatriya Uzmanlıq Akademiyası Dərnəyi səhiyyə işçilərinin elmi təcrübəsinin artırılması, uşaq sağlamlığı və xəstəlikləri sahəsində təlim, tədqiqat fəaliyyətlərini təşkil edən və dəstəkləyən təşkilatdır.

**ATU-nun Uşaq cərrahlığı kafedrasının müdiri, professor Ramiz Poluxov və həmin kafedranın assistenti Namiq Xəlilov bu günlərdə Rusiyanın Stavropol şəhərində keçirilmiş beynəlxalq elmi-praktik konfransdan qayıdıblar.**

# Uşaq cərrahlarımız Rusiyada beynəlxalq konfransa qatılıb



Əməkdaşlarımız Stavropol Dövlət Tibb Universiteti və Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə "Şimali Qafqazda uşaqlarda cərrahiyyə, onkologiya, anesteziologiya və reanimatologiyanin aktual problemləri"nə həsr edilmiş tədbirdə moderator və çıxışçı qismində iştirak ediblər. Konfransa Rusiya, Azərbaycan, Belarus və Özbəkistandan aparıcı mütəxəssislər, regionun praktik səhiyyə həkimləri, həmçinin həkim-ordinator və rezidentlər qatılıblar.

Açılış mərasimində çıxış edən Stavropol Tibb Universitetinin rektoru, professor V.N.Majarov, Rusiya Uşaq Cərrahları Assosiasiyasının sədri, professor A.Y.Razumovski, universitetin Uşaq cərrahlığı kafedrasının müdiri, professor S.V.Minayev və başqaları müzakirəyə çıxarılan məsələlərin uşaq sağlamlığı üçün aktual olduğunu qeyd ediblər. Bildirilib ki, bilik və iş təcrübəsi mübadiləsi Rusiyanın cənubunda, Şimali Qafqazda və ölkənin digər regionlarında uşaqlara göstərilən ixtisaslaşdırılmış tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə kömək edəcək.

Torokoabdominal cərrahiyyə, abdominal cərrahiyyə, uşaq cərrahiyyəsi və onkologiyada innovativ texnologiyalar, uşaq cərrahiyyəsində yeni metodlar və orijinal kliniki hallar kimi bölmələrdə davam edən konfrans çərçivəsində professor R.Poluxov "Uşaqlarda yoğun bağırsağın rezeksiyası zamanı sirkulyar steplerin transanal tətbiqi", assistent N.Xəlilov isə "Uşaqlarda pilonidal sinusun cərrahi müalicəsi taktikası" mövzularında çıxış edib, iştirakçıların suallarını cavablandırıblar.

Tədbirin təntənəli axşam yeməyində Azərbaycanı təmsil edən həkimlərə söz verilib. N.Xəlilov Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin konfrans iştirakçılarına təbrik məktubunu oxuyub, ölkələrimiz arasındakı əməkdaşlıq münasibətlərindən danışıb. Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının prezidenti R.Poluxov Assosiasiyanın adından təbrik məktubunu səsləndirib.

Qeyd etmək lazımdır ki, MDB məkanında tanınmış cərrahların məruzə etdiyi belə mötəbər konfransda əməkdaşlarımızın universitetimizi layiqincə təmsil etməsi, eləcə də tibbin bu sahəsi üzrə elmin son nailiyyətləri ilə tanış olması mühüm hadisədir.



# Baxış və jestlər dili

## Yer kürəsində minlərlə dil olsa da, lal-karların ünsiyyət forması birdir

**Yer kürəsində 2500 dil var. Onların içərisində biri tam fərqlidir: baxış və jestlər dili. Hər il sentyabrın son bazar günü bütün dünyada Beynəlxalq Lal-Karlar Günü kimi qeyd edilir. 1951-ci ildə təsis olunmuş bu günün başlıca məqsədi karların üzləşdikləri gündəlik problemlərə cəmiyyətin diqqətini yönəltməkdir.**

Mövzu ilə bağlı ATU-nun Qulaq, burun, boğaz xəstəlikləri kafedrasının assistenti Şirazi İbrahimovla söhbətləşdik. Onun sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkilatının Xəstəliklərin Beynəlxalq Təsnifatı sənədinə əsasən, eşitmə qabiliyyətinin pozulmaları beş dərəcədə qiymətləndirilir: 1-ci yüngül, 2-ci orta, 3-cü ağır, 4-cü çox ağır və 5-ci isə karlıq sayılır: "Ağıreşitmənin dərəcəsini müəyyən etmək üçün elektroakustik cihaz vasitəsilə müayinə aparılır. Bu müayinə üsulu tonal audiometriya adlanır. Xəstənin qulağına müxtəlif gücdə tonlar verilir. Tonlar desibellərlə (dB) ölçülür. Normada eşitmə qabiliyyəti 25 dB gücündə olur. Ağıreşitmənin 1-ci dərəcəsində bu göstərici 26-40, 2-ci dərəcədə 41-55, 3-cü dərəcədə 56-70, 4-cü dərəcədə 71-90 dB olur, karlıq zamanı isə 91 dB-dən yuxarı qalxır.

Karlıq 2 formada olur. Tam və sosial karlıq. Sosial karlıq zamanı xəstələr daim çox yüksək tonlarda səs və küyləri eşidirlər (partlayış, maşın siqnalı və sair). Bu şəxslər müəssisələrdə çalışa bilmir və beləliklə sosial əlil sayılır. Tam karlıq zamanı isə xəstələrdə ümumiyyətlə eşitmə qabiliyyəti itirilmiş olur. Ağıreşitmənin 1-ci dərəcəsini xəstələr hiss etməyə bilər. Onların özü ilə yanaşı, ətrafdakı şəxslər də bunu hiss etmir. İlk şikayətlər ağıreşitmənin 2-ci dərəcəsində başlayır və qulaqlarda küylə bağlı olur. Bundan əlavə, xəstələr yüksək tezliklərdə olan səsləri və küyləri eşitmirlər. Bir sıra şəxslər nitqi eşidirlər, lakin sözləri ayırd edə bilmirlər. Müraciət edən xəstələrin bəziləri qulaqda dözülməz küydən şikayət edir və bu küylər gecə vaxtı daha da artır. Ağıreşitmənin 3-cü dərəcəsində xəstələr həddən artıq əziyyət çəkirlər. Adətən yüksək tonlarda nitqləri eşidir və özləri də yüksəkdən danışırlar. Bu dərəcədə adətən əmək qabiliyyəti itirilir".

Həkim deyir ki, lokalizasiyaya görə ağıreşitmənin 3 forması ayırd edilir: konduktiv, sensonevral və qarışıq. Konduktiv ağıreşitmə səsi nəql edən aparatın xəstəliyidir. Bu aparata xarici və orta qulaq daxildir. Konduktiv ağıreşitməyə aid olan bir çox xəstəliklərin müalicə olunur. Sensonevral ağıreşitmə səsi qəbul edən aparatın xəstəliyidir. Bu isə daxili qulaq və eşitmə sinirindən ibarətdir. Sensonevral ağıreşitmə əksər hallarda müalicəyə tabe olmur. Belə hallarda eşitmənin protezləşməsi həyata keçirilir. Protezləşmə eşitmə cihazları və implantlar vasitəsiylə icra olunur. Bu əməliyyat koxlear implantasiya adlanır. Ağıreşitmənin qarışıq formasında isə hər iki aparatın xəstəlikləri birgə müşahidə edilir. Məsələn, uzun müddət çəkən orta qulağın iltihabı xəstəlikləri sensonevral ağıreşitməyə səbəb olur və beləliklə, qarışıq ağıreşitmə ortaya çıxır.

Ş.İbrahimov bildirir ki, eşitmə problemləri daha çox travma, xəstəlik və ya anadangəlmə çatışmazlıqlar nəticəsində yaranır: "Yenidoğulmuşlarda sensonevral ağıreşitmənin aşkar edilməsində audioloji diaqnostika qızıl standart sayılır. Ağıreşitmənin yaranma səbəbi və dərəcəsindən asılı olmayaraq, eşitmə qabiliyyətinin kəskin formada azalması uşaqlarda nitqin pozulmasına gətirib çıxara bilər. Ümumiyyətlə, insanın lal olmağının səbəbi onun eşitməməsidir. Əgər haçansa eşidərsə, mütləq danışacaq.

Onu da qeyd edim ki, dərəcəsindən asılı olaraq, kəllə-beyin travmaları da ağıreşitmənin, hətta karlıq dərəcəsində belə yaranmasına səbəb ola bilər.




Eləcə də fizioloji olaraq yaş artdıqca bir çox koqnitiv funksiyalar azalır. 50-60 yaşdan sonra insanın orqanizmində involusiya prosesləri baş verir. Bu yaşlardan sonra eşitmə qabiliyyətinin pozulması istisna olunmur. Yaşla əlaqəli eşitmə qabiliyyətinin azalması presbiakusis adlanır. Xəstəlik tədricən inkişaf edir və qocalıqda karlığa keçə bilər. Adətən belə xəstələr yüksək tezlikli səsləri eşitmir və alçaq tezlikli səsləri ayırd edə bilirlər".

Ölkəmizdə də eşitmə qüsurlu insanların az olmadığını qeyd edən həkim, dövlət tərəfindən lal-kar uşaqların cəmiyyətə inteqrasiyası üçün bir sıra işlərin görüldüyünə diqqət çəkib: "Ölkəmizdə ilk dəfə belə bir məktəb 1932-ci ildə Bakıda fəaliyyətə başlayıb. 1969-cu ildə ikinci məktəb açılıb. Biri 1 saylı, digəri isə 3 saylı respublika xüsusi internat məktəbi adlandırılıb. 2012-ci ildə Nazirlər Kabinetinin qərarı ilə onlar birləşdiriləlrək 3 saylı respublika xüsusi internat məktəbi yaradılıb. İnternat məktəbində dama, futbol, rəsm dərnəyi fəaliyyət göstərir. Bununla yanaşı, məktəbin şagirdlərindən ibarət rəqs qrupu da var. Bundan başqa, defektoloq üzrə müəllimlərə ehtiyac yarandığından, 1990-cı ildə ADPU-da Defektologiya fakültəsi açılıb. Hər il Heydər Əliyev Fondunun dəstəyi ilə çoxlu sayda uşağa koxlear implantasiya əməliyyatı icra olunur. Əməliyyatdan sonra danışan körpələr isə təkcə valideynlərin deyil, tibb personalın da sevinc mənbəyidir".



# Əməkdaşımız Avropanın “Ən yaxşı hakimi” seçilib

## Ermənilərin əsassız şikayətlərinə baxmayaraq, Qələndər Aslanov 4-cü dəfə bu ada layiq görülüb

**Sentyabrın 6-8-də Rumıniyanın Kluj Napoka şəhərində Kyokuşin karate üzrə Avropa çempionatı keçirilib. Çempionatda 25 ölkədən 400-dən çox idmançı iştirak edib.**

Ölkəmizi hakim və rəsmi nümayəndə kimi beynəlxalq dərəcəli hakim Qələndər Aslanov, idmançı olaraq qadınlar arasında yığma komandanın üzvü Aygün Əsədli 55 kq çəki dərəcəsində təmsil edib. A.Əsədli bütün rəqiblərinə qalib gələrək Kyokuşin karate üzrə qadınlar arasında ilk Avropa çempionu adını qazanıb.

Azərbaycan Tibb Universitetinin “Təbib” Tədris İdman Sağlamlıq Mərkəzinin direktoru olan Q.Aslanov Beynəlxalq Kyokuşin-kan Karate Təşkilatının prezidenti Royama Hatsuo və Baş Hakimlər Komitəsinin sədri Akira Koyama tərəfindən Avropada "Ən yaxşı hakim" seçilib və xüsusi hədiyyə ilə təltif olunub. Q.Aslanov hakimlik fəaliyyəti dövründə dördüncü dəfədir ki, Avropada və dünya çempionatlarında bu ada layiq görülür (2012-ci ildə Rusiyada, 2016-cı ildə Türkiyədə, 2019-cu ildə İranda və bu il Rumıniyada). Bu nailiyyət Azərbaycanın karate tarixində bir ilkdir.

Əməkdaşımız maraqlı bir məsələ haqda da məlumat verib: “Prezident Hatsuo Royama deyirdi ki, Avropa və dünya çempionatından sonra mənə çoxlu şikayət məktubları gəlirdi. Yazırdılar ki, Qələndər Aslanovu beynəlxalq dərəcəli hakimlikdən uzaqlaşdırın, ona final görüşlərinin hakimliyini verməyin. O düzgün hakimlik etmir, millətçidir və s. Hatsuo Royama isə cavabında sübutlar istəyirmiş. Mənə söylədi ki, hər şikayət məktubundan sonra növbəti yarışlarda sənin hakimliyinə daha çox diqqət etməyə başladım və gördüm ki, şikayətlərin heç bir əsası yoxdur, hər şey beynəlxalq qaydalara uyğundur”.

Q.Aslanov Royamadan məktubların kimlər tərəfindən yazıldığını soruşub: “Əvvəlcə demək istəməsə də, sonra onların adlarını çəkdi. Məlum oldu ki, Rusiyada yaşayan erməni əsilli idmançılardı. Hansı ki, mən onların döyüşlərində dəfələrlə hakimlik etmişəm və haqlı məğlub olanı da olub, qalib gələni də. Buna baxmayaraq, hər dəfə məndən şikayət ediblər. Göründüyü kimi, yalan ayaq tutsa da, yeriməyib. Dünyanın harasında oluramsa-olum, ölkəmin üçrəngli bayrağını hər zaman uca tutmağa çalışmışam və bununla fəxr edirəm”.

# Tələbələrimiz posttravmatik stress pozuntusu ilə bağlı elmi araşdırma aparıb

**2020-ci ildə böyük qələbə ilə yekunlaşan 44 günlük Vətən müharibəsi tariximizə qızıl hərflərlə yazıldı. Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik siyasəti və Azərbaycan ordusunun igidliyi sayəsində torpaqlarımız 30 illik işğaldan azad edildi. Bu şanlı qələbənin əldə olunmasında həkimlərimiz də böyük qəhrəmanlıq göstərdilər.**

Həkimlərimiz təkcə müharibə dövründə deyil, müharibədən sonrakı dövrdə də qazilərimizin sağlam həyata qovuşması üçün əllərindən gələni ediblər. I Müalicə-profilaktika fakültəsinin V kurs, 120R 2b qrup tələbələri Rafiq Aslanov və Ülviyyə Əliyeva Vətən müharibəsi qazilərində posttravmatik stress pozuntusu (PTSP) ilə bağlı elmi araşdırmalar aparıblar.

R.Aslanov “Bakinskiy raboçiy” qəzetinə müsahibəsində gördüyü işlər haqqında ətraflı məlumat verib. Qeyd edib ki, ATU-nun Tələbə Elmi Cəmiyyəti çərçivəsində PTSP-dən əziyyət çəkən 44 günlük müharibə iştirakçılarının uyğunlaşma mexanizmlərini və həyat keyfiyyətini öyrənmək məqsədi ilə “44 gün… Zəfər…Ruhumuzla olan səssiz savaşlar…” adlı tədqiqat aparıb. O, elmi rəhbəri – ATU-nun Psixiatriya kafedrasının dosenti Sevda Katiblinin məsləhəti ilə aktual və məsuliyyətli bir mövzu olan PTSP-ni seçib və bu istiqamətdə tədqiqat aparmağa qərar verib. Tələbəmiz ona göstərilən dəstəyə, həmçinin psixiatriya sahəsində peşəkar tibb işçilərinin formalaşması üçün yaradılan şəraitə görə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürünü bildirib.



R.Aslanov müsahibəsində vurğulayıb ki, PTSP çox vaxt diqqətdən kənarda qalan, lakin insan həyatına dərin təsir göstərən ciddi psixi vəziyyətdir. Müharibə təkcə fiziki mübarizə deyil, həm də bitdikdən sonra davam edən emosional bir mübarizədir. Tələbəmiz qeyd edib ki, ilk öncə elmi rəhbərlə mövzuya yanaşmaları müzakirə edib, daha sonra Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinin rəhbəri, professor Fuad İsmayılovun dəstəyi ilə PTSP diaqnozu qoyulmuş veteranların 1 saylı Respublika Psixiatriya Xəstəxanasında müayinəsi təşkil edilib. Posttravmatik stres pozuntusu diaqnozu təyin edilmiş hərbçilərə həm klinik psixoloqlar tərəfindən psixoloji yardımın müxtəlif növləri (psixoloji profilaktika, psixoloji konsultasiya, psixoloji dəstək, psixoterapiya), həm də psixiatrlar tərəfindən dərman müalicəsi təyin olunur. Psixoloji yardımın növü və dərman müalicəsi psixi problemin ağırlıq dərəcəsinə əsasən təklif edilir.

R.Aslanov diqqətə çatdırıb ki, psixiatriya sahəsində tədqiqatlarını davam etdirmək və biliklərini dərinləşdirmək niyyətindədir. PTSP mövzusu və onun müharibədən keçmiş insanlara təsiri daha çox araşdırmalar, yeni müalicə və reabilitasiya üsullarının hazırlanmasını tələb edir: “Həkim kimi borcumuz bizə sülh və azadlıq bəxş edən qazilərimizə yardım göstərmək, onları sağlamlıqlarına qovuşdurmaq və əvvəlki həyata qaytarmaqdır”.

## Allah rəhmət eləsin!

Əczaçılıq toksikologiyası və kimya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Könül Hüseynquluyevaya əzizi

**Bəsti xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın dosenti Nüsrəddin Əliyevə qardaşı

**Xeyrəddin Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının əməkdaşları İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Kamran Babayevə atası

**Əlövsət Babayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın preparatoru Günay Bayramovaya atası

**Müslüm Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Bu il Ailə təbabəti kafedrasının əməkdaşları üçün çox səmərəli və məhsuldar olub. Belə ki, kafedranın bir qrup əməkdaşı tərəfindən yeni dərsliklər hazırlanıb.**

# Ailə təbabəti kafedrası yeni dərsliklər hazırlayıb

Kafedra müdiri, professor İbrahim İsayev, o cümlədən R.Məmmədova, S.Xanməmmədova, A.Mustafayeva, S.Rəfiyeva və A.Quliyevanın həmmüəllifliyi ilə 456 səhifəlik “Tibb bacılığının əsasları” dərsliyi işıq üzü görüb.




Kitab tibb bacısı işinin nəzəri və təcrübi əsaslarını özündə əks etdirir. Dərsliyin ayrı-ayrı fəsillərində tibb bacısı işinin təməl prinsipləri, sübuta əsaslanan tibb bacılığı, tibb bacısının fəaliyyətində etik və mənəvi məqamlar qeyd olunub, tibb bacısı tərəfindən həyata keçirilən əsas diaqnostik və müalicəvi prosedurların, manipulyasiyaların yerinə yetirilmə qaydaları ətraflı və hərtərəfli izah edilib.

30 bölümdən ibarət “Tibb bacılığının əsasları” kitabı tibb təhsili verən aparıcı universitetlərin tədris proqramları əsasında tərtib olunub və ali tibb bacılığı ixtisası üzrə təhsil alan tələbələr və artıq fəaliyyət göstərən mütəxəssislər üçün nəzərdə tutulub.

***

Bundan başqa, professor İ.İsayev və Mənzər Novruzovanın müəllifliyi ilə 430 səhifəlik “Daxili xəstəliklərdə tibb bacılığı” adlı dərslik çap edilib. Azərbaycan dilində ilk dəfə təqdim olunan bu dərslik dövlət təhsil standartı və ali tibb təhsili verən aparıcı universitetlərin tədris proqramları əsasında tərtib edilib və 14 fəsildən ibarətdir.




Dərslikdə tibb elminin müasir nailiyyətlərinə əsaslanaraq daxili orqanların çox rast gələn xəstəliklərinin epidemiologiyası, etiopatogenezi, klinik gedişi və təzahürləri, fiziki və laborator-instrumental diaqnostika haqqında geniş məlumat verilib. Nəzəri materialın təqdim olunması ilə yanaşı, xəstənin müayinəsinə, bir sıra manipulyasiyaların aparılması qaydalarına, təcili tibbi yardım tələb olunan hallarda tibb bacısı tərəfindən həyata keçirilməli fəaliyyətin alqoritmlərinə və daxili orqanlarında xəstəlikləri olan xəstələrə tibb bacısı işinin təşkili prinsiplərinə aid ətraflı izahlar yer alıb. Hər bir daxili xəstəlik zamanı tibb bacısının diaqnozları və xəstəyə qulluq, xəstə və yaxın qohumları ilə davranış, xəstəlik və onun müalicəsinə dair maarifləndirmə işlərinin aparılması haqda konkret məlumatlar təqdim edilib ki, bunlar tələbələri gələcək fəaliyyətə hazırlamaq baxımından vacib amillərdir.

***

Növbəti dərslik professor İ.İsayevin redaktorluğu ilə kafedranın bir qrup əməkdaşı - Afət Nəsibli, İradə Məmmədova və Fidan Əhədovanın birgə müəllifi olduğu “Evdə xəstə xidmətində tibb bacılığı”dır. Azərbaycan dilində ilk dəfə təqdim edilən bu dərslik də ali tibb bacılığı ixtisası üzrə təhsil alan tələbələr, magistrlər və təhsil verən mütəxəssislər üçün nəzərdə tutulub.




Dərslikdə ev şəraitində sağlamlığın qiymətləndirilməsi, xəstəyə qulluq və ətraf mühitlə təmasın qurulması, palliativ qulluq, heriatrik sindromlar, yaşlı insanlara müasir kömək üsulları, ev şəraitində qidalanma, uzun müddət yataq rejimi ilə əlaqəli ağırlaşmalar və ikincili xəstəliklər, onların profilaktikası və s. mövzular ətraflı şəkildə öz əksini tapıb. Dərslik tərtib edilərkən son illərin elmi məlumatları və müvafiq ədəbiyyat materiallarından istifadə edilib.

Məlumat üçün bildirək ki, hər üç kitab universitetin tədris proqramına uyğun olaraq ATU-nun Böyük Elmi Şurasının qərarı əsasında çap olunub.

**Etibarsız sayılır** Hüseynli Arzu Vəli qızının (qrup 218R2b) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0016
Sayı 800